Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"

# Əbədi şöhrət

## Həzi Aslanov erməni xəyanətinin qurbanı olub

*O, həyatı ilə ölümə qələbə çaldı, ölümü ilə həyatı qazandı.*

**Mirzə İbrahimov**

### II yazı

**1943-cü il dekabrın 17-dən 1944-cü il aprelin 6-na qədər H.Aslanov Lenin ordenli Zirehli tank qoşunları Hərbi Akademiyasının akademik kurslarının dinləyicisi olmuşdur. 1944-cü il martın 13-də SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə H.Aslanova tank qoşunları general-mayoru rütbəsi verilir. Elə həmin günlərdə Moskvada, "Moskva" mehmanxanasında H.Aslanovla rastlaşan şair Səməd Vurğun onunla görüşüb, söhbət edir və onu yeni yüksək rütbə alması münasibətilə təbrik edir. Aprelin 6-da kursları bitirmiş H.Aslanovu Səməd Vurğun cəbhəyə yola salır, onlar yaxın dost kimi ayrılırlar.**

1944-cü ildə Həzi Aslanov artıq 3-cü Belorusiya cəbhəsinin 35-ci tank briqadasının komandiri idi. 1944-cü ilin təkcə yazında onun tank briqadası Ukrayna və Belorusiyanın Moloqedno, Minsk və Vileyka şəhərlərini və bir çox kəndlərini azad etdi. 1944-cü ilin 23-30 iyun günlərində "Baqration" əməliyyatının gedişində H.Aslanov qətiyyətli fəaliyyəti ilə xüsusilə fərqlənirdi. Onun tank briqadası cəbhənin hissələri içərisində ən birinci olaraq mühüm strateji əhəmiyyət kəsb edən Berezina çayını keçdi, xalq qisasçıları Minsk partizan birləşmələri ilə əlaqə saxlayıb, onlardan düşmən haqqında ətraflı məlumatlar toplayaraq, az qüvvə ilə düşmənin çox möhkəmləndirilmiş qarnizonuna hücum etdi və Pleşenina şəhərini azad edərək, 3-cü Belorusiya cəbhəsinin əsas qüvvələrinin müvəffəqiyyətli hücumu və Minsk şəhərinin alınması üçün əlverişli şərait yaratdı. İyulun 1-də isə Borisov şəhəri faşist işğalçılarından tam azad olundu. Qızğın döyüşlərin gedişində 580 yaşayış məntəqəsi azad edildi, düşmənin 193 avtomaşını ələ keçirildi, 15 tankı, 131 topu, 40 təyyarəsi, 1240-a qədər texnikası məhv edildi, 2600 faşist əsgər və zabiti əsir alındı. Təkcə Borisov uğrunda döyüşdə düşmənin ölən əsgər və zabitlərinin sayı 8000 nəfər idi.

Ali baş komandan İ.V.Stalin 1 iyul 1944-cü il tarixli əmrində döyüşə-döyüşə al qana boyanmış Berezina çayını keçərək, Minsk və Borisov şəhərlərinin azad edilməsində iştirak etmiş 3-cü Belorusiya qoşunlarına təşəkkür elan etdi. Əmrdə şanlı hərbi rəislərin adları sırasında tank qoşunları general-mayoru H.Aslanovun da adı vardı .

Yüksək səviyyədə keçirilmiş əməliyyatdan sonra 1944-cü il iyulun 7-də 3-cü Belorusiya cəbhəsinin komandanı İvan Daniloviç Çernyaxovski tərəfindən 35-Qvardiya tank briqadasının komandiri Sovet İttifaqı Qəhrəmanı general-mayor H.Aslanov döyüş əməliyyatına uğurlu rəhbərliyinə və "Baqration" əməliyyatının gedişində şəxsi igidliyinə görə 2-ci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edildi.

1944-cü il iyunun axırından H.Aslanovun 35-ci tank briqadası 3-cü Belorusiya cəbhəsinin tərkibindən I Pribaltika cəbhəsinə, İvan Xristoforoviç Baqramyanın sərəncamına keçirilmişdi. Bu cəbhədə də H.Aslanov öz sərkərdəlik fəaliyyəti ilə parladı. Onun tankçıları Litva və Latviyanın Vilnus, Şaulyay şəhərlərini azad etdi və Riqanın cənub-şərqində almanların müdafiə xəttini yardı. 3-cü Belorusiya və I Pribaltika cəbhələrindəki qəhrəmanlığına görə H.Aslanovun tankçıları 8 dəfə Ali Baş Komandanın təşəkkürünə layiq görüldülər. H.Aslanov özü isə ikinci dəfə "Qırmızı Ulduz" ordeni və II dərəcəli Suvorov ordeni ilə təltif olundu.

1945-ci ilin yanvarında H.Aslanovun briqadası Qərbi Dvina (Dauqava) çayı sahilində (Latviya) limandan faşist qoşunlarının yerləşdiyi rayona gedən dəmir yolunu tutmaq əmrini almışdı. Tankçılar döyüşə-döyüşə sürətlə irəliləyərək dəmir yolunu tutub, Baltik dənizi sahilinə çatdılar. Bununla da almanları kömək aldıqları mühüm limandan istifadə etmək imkanından məhrum etdilər. H.Aslanovun tankçıları Latviyanın Riqadan sonra ikinci böyük şəhəri olan Yelqavanın alınmasında da fərqləndilər. Gözəl qələbə idi!

Lakin bu döyüşdə H.Aslanov yaralandığından bir neçə gün hospitalda qalmalı olur. Yanvarın 24-də o, doğma briqadasına qayıdır. Böyük Vətən müharibəsi veteranı, tarix elmləri doktoru Məzahir Abasovun "Böyük sərkərdə" məqaləsində yazdığına görə, elə həmin saat İ.X.Baqramyanın əmrilə H.Aslanov hərbi əməliyyatın keçiriləcəyi yeri yoxlamaq üçün kəşfiyyata göndərilir. Halbuki, bu işin öhdəsindən hərbi səriştəli hər bir zabit gələ bilərdi. Hətta faşizmlə böyük qarşıdurmada talelərin həll olunduğu, insan ruhunun, çoxmillətli cəbhə dostluğunun yüksəlişi günlərində belə, əsrlərlə kök salmış kor erməni millətçiliyi virusu özünü göstərdi. "Baqramyan" kəşfiyyatı H.Aslanovun həyatına son qoydu....

Göndərilən sahəyə gələn general maşından düşən kimi, 700-800 metrlikdən top atəşləri açıldı. Dəqiq tuşlanılmışdı. H.Aslanov ürəyindən yaralanır, üç qabırğası sınır. Generalın hadisənin şahidi olmuş silahdaşlarının dediyinə görə, H.Aslanov 20 saat sağ qalıb. Bu uzun müddət ərzində şöhrət qazanmış generala lazımı tibbi kömək göstərilmir, əksinə, yanında olan həkim də (Q.Beqaşvili - R.S) ratsiya vasitəsilə təcili olaraq başqa istiqamətə göndərilir, nəticədə o, həlak olur. Həmin faktı 1945-ci il yanvarın 24-də yaralanmış H.Aslanovun yanında olan hərbi həkim Qriqori Beqaşvili özü də 1985-ci ildə Tbilisi şəhərində qəhrəmanın oğlu Arif Aslanovla söhbəti zamanı təsdiq etmişdir.

Yanvarın 25-də H.Aslanovun həlak olmasını bütün Azərbaycan bildi. Respublika rəhbərliyinin təkidilə yanvarın 31-də generalın cənazəsi Bakıya gətirildi. Hazırda onun adını daşıyan "Qızıl Ordu" (indiki "Zabitlər") evində vidalaşmadan sonra, fevralın 3-də Bakı öz sevimli oğlunu hərbi orkestrin sədaları altında son mənzilə yola saldı. H.Aslanov Bakıda Dağüstü parkda (indiki Şəhidlər xiyabanı) torpağa tapşırıldı. Matəm mitinqində çıxış edən Azərbaycanın xalq şairi Səməd Vurğun dedi: "Azərbaycanın gələcək nəsilləri tank qoşunları general-mayoru H.Aslanovun adını ehtiramla çəkəcəklər. Onun bahadır həyatı və ölümü, Stalinqraddan Riqa körfəzinə və Şərqi Prussiyaya qədər gedən zəfər yolu nəsillər üçün rəşadət, mərdlik, Vətənə sədaqət timsalı olacaqdır" .

İllər keçir, lakin H.Aslanovun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı alması haqqında fərman işıq üzü görmürdü. Bu fakt uzun müddət gizlədilmiş, çətin izah oluna bilən səbəblərə görə, az qala yarım əsr müddətində 1713 saylı 4.07.1944-cü il tarixli mükafatlandırma materialı Podolsk şəhərində SSRİ Müdafiə Nazirliyinin Mərkəzi arxivində toxunulmaz qalmışdı.

Ədalətin bərpası üçün çox cəhdlər göstərildi. Nəhayət, 1991-ci il iyunun 21-də Həzi Əhəd oğlu Aslanovun Lenin ordeni və ikinci "Qızıl Ulduz" medalı ilə təltif olunması barədə fərman imzalandı. (H.Aslanov SSRİ-də ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verilmiş 103 nəfərdən sonuncusudur).

Xalqımız qəhrəman oğlunun adını əbədiləşdirmişdir. Bakıda Zabitlər evi, mərkəzi küçələrdən biri, Volqoqradda küçə, tanker və məktəb onun adını daşıyır. 1969-cu il mayın 9-da Lənkəranda H.Aslanovun ev muzeyi açılmışdır.

SSRİ Müdafiə Nazirliyinin 236 saylı 3 oktyabr 1975-ci il tarixli əmrilə Həzi Aslanovun adı əbədi olaraq Bakı Ali Ümumqoşun Komandirləri məktəbinin (indiki Ali Hərbi Məktəb) Birinci rotasının siyahısına salınmışdır.

Ədəbiyyat və incəsənət nümayəndələri qəhrəmanın bədii surətini yaratmış, onun sədaqət, rəşadət, sücaət, iradə və təvazökarlıq xüsusiyyətlərini bədii lövhələrdə təcəssüm etdirmişlər. Şair Səməd Vurğun "Qəhrəmanın ölümü" şeirini (1945), C.Cavadlı "Ölməz sərkərdə" şeirini (1970), İ.Meyeroviç "Həzi Aslanov" poemasını, Hüseyn Abbaszadə "General" romanını (1962) yazmışlar. Bəstəkar Süleyman Ələsgərov "Həzi Aslanova xatirə" simfonik poemasını (1944) və C.Cavadlının "Ölməz sərkərdə" şerinə musiqi (1971) yazmış, "Azərbaycanfilm" onun həyat yoluna dair "Sizi dünyalar qədər sevirdim" bədii filmini və "General Aslanov" sənədli filmini (ssenari müəllifi İ.Səfərli, rejissoru M.Bağırov) çəkmişdir.



1973-cü ildə heykəltəraş Cəlal Qaryağdı general-mayor Həzi Aslanovun büstünü hazırlamışdır. 1949-cu ildə Dağüstü parkda qəhrəmanın qəbirüstü abidəsi qoyulmuşdur (müəllif: Fuad Əbdürrəhmanov). 1995-ci il mayın 9-da, Böyük Vətən Müharibəsində qələbənin 50 illiyi günündə Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin ərazisində H.Aslanovun büstü açılmışdır. Prezident Heydər Əliyev açılış zamanı şanlı sərkərdənin əsgəri igidliyi, sücaəti, yenilməzliyi haqqında fikirlərini bildirmiş və məktəbə H.Aslanovun adının verildiyini demişdir. 2009-cu ilin fevralında Belarusun Minsk vilayətinin Vileyka şəhərində (bu şəhəri Həzi Aslanovun tank briqadası 1944-cü ildə faşist işğalçılarından azad etmişdir) Belarusdakı Azərbaycan diasporunun (sədri 4 dəfə dünya çempionu Natiq Bağırovdur) vəsaiti hesabına Həzi Aslanovun heykəli qoyulmuşdur. Hündürlüyü 3 metr olan heykəl məşhur Belarus rəssamı və heykəltəraşı, həmvətənimiz Kamil Kamal tərəfindən hazırlanmışdır.

H.Aslanovun ömrü qısa olsa da, şərəfli keçmişdir. Öz mərdliyi, igidliyi, yüksək ideallara sədaqəti və bütün həyatı ilə özünə əbədi şöhrət qazanmış Azərbaycan oğlunun həyat və fəaliyyəti gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsi üçün ən yaxşı nümunədir.


ВРЕМЕННОЕ УДОСТОВЕРЕНИЕ
ЗА ОБРАЗЦОВОЕ ВЫПОЛНЕНИЕ БОЕВЫХ ЗАДАНИЙ КОМАНДОВАНИЯ НА ФРОНТЕ БОРЬБЫ С НЕМЕЦКИМИ ЗАХВАТЧИКАМИ
ОБЩЕЕ ПОЛОЖЕНИЕ об орденах Союза ССР.
№ 220628

Həzi Aslanova məxsus sənədlər

**Rəna Səfərova**
**AMEA Milli Azərbaycan Tarixi Muzeyinin aparıcı elmi işçisi**

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*